

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 10 (23.172)

16 yanvar 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

Söhbət zamanı Nikola Sarkozinin 2007-2012-ci illərdə Fransanın Prezidenti olduğu dövrdə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndiyi vurğulanıb, bir çox sahələrdə əlaqələrimizin böyük inkişaf yolu keçdiyi qeyd edilib. Azərbaycan Prezidenti və Nikola Sarkozi öz aralarında keçirilən görüşləri məmnunluqla xatırlayıblar. Qeyd olunub ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri məhz Prezident İlham Əliyev və Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olub. Bakıda hər iki Prezidentin iştirakı ilə Fransız liseyinin təməlinin qoyulması əlamətdar hadisə kimi dəyərləndirilib. Həmin illərdə yüksək səviyyəli siyasi əlaqələrin möhkəmlənməsi nəticəsində bir çox fransız şirkətləri Azərbaycanda fəaliyyətə başlayıb və ya öz fəaliyyətini genişləndiriblər.

Nikola Sarkozi ona göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev, öz növbəsində, Nikola Sarkozini yenidən Azərbaycanda görməyindən məmnun olduğunu ifadə edib.



# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclasında 2018-ci ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.*

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev 2018-ci ildə muxtar respublikada hüquq institutlarının təkmilləşdirilməsi və ədalət mühakiməsinin keyfiyyətinin artırılması istiqamətində görülmüş genişmiqyaslı işlərdən, ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətindən bəhs edib.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər həyata keçirilib. Hakimlərin peşə bacarıqlarının artırılması, onlar tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, hüquqi biliklərin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavə və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri də uğurla aparılıb.

Ali Məhkəmənin sədri qeyd edib ki, qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, məhkəmə orqanlarının yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi məhkəmə sisteminin daha da müasirləşdirilməsinə səbəb olmaqla yanaşı, ədalət mühakiməsinin tam, obyektiv və qərəzsiz aparılmasına, məhkəmə nöqsanlarının və işlərə baxılmasında gecikdirilmə hallarının aradan qaldırılmasına, məhkəmə qərarlarının vaxtında icra olunmasına, məhkəmə müdafiəsi hüququnun daha möhkəm şəkildə təmin edilməsinə şərait yaradıb.

Qasım Əliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazası təkmilləşdirilib, Ali Məhkəmənin nəşri olan "Bülleten"in növbəti sayları işıq üzü görüb, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin tövsiyəsi əsasında "Naxçıvan məhkəmə tarixi" adlı kitabı çap olunub.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələrinin, şəhər və rayon məhkəmələri sədrlərinin 2018-ci ildə görülən işlərlə bağlı çıxışları dinlənilib.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev yekun vuraraq bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Ali Məclisin Sədri tərəfindən verilmiş tövsiyəyə Ali Məhkəmənin fəaliyyətində rəhbər tutulacaq, bundan sonra da ədalət mühakiməsi obyektiv, tam və qərəzsiz şəkildə həyata keçiriləcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının keyfiyyətli ödənilməsi üçün səylər davam etdiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasını ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 18 may tarixli Fərmanı ilə nazirliyin strukturunda dəyişiklik edilib. Struktur dəyişikliyi nəticəsində İcra şöbəsinin əsasında İcra və probasiya şöbəsi, regional icra və probasiya üzrə şöbə və bölmələr yaradılıb, dövlət notariat kontorlarının əsasında 6 xüsusi notarius təsis edilib, ekspertlərin sayı artırılıb, şəxsi heyətin rütbə təsnifatı müəyyənləşib.

Qeyd olunub ki, hesabat dövründə müxtəlif tədbirlər keçirilib. Ötən il Hüquqi Aktların Dövlət Reyestrinə 168 hüquqi akt daxil olub ki, həmin aktlardan 98-i normativ, 69-u qeyri-normativ hüquqi akt, 1-i isə normativ xarakterlidir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq müvafiq ixtisaslarda təhsil alan tələbələr nazirliyin aparatında və digər struktur bölmələrində təcrübədə olublar.

Qeydiyyat və notariat şöbəsi tərəfindən 2018-ci ildə 6 qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınıb, 1-i reyestrdən çıxarılıb. 3 mətbu nəşr qeydə alınıb, 4 qeyri-hökumət təşkilatı ilə bağlı reyestrdə dəyişiklik edilib. Vətəndaşlıq vəziyyəti aktları ilə bağlı təkrar şəhadətnamələrin verilməsi və sənədlərin leqallaşdırılması ilə bağlı 25 min 346 manat rüsum dövlət büdcəsinə ödənilib. Hesabat dövründə rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 12 min 414 əməliyyat aparılıb və dövlət büdcəsinə 21 min 502 manat dövlət rüsumu ödənilib.

Nazir bildirib ki, ötən il Məhkəmə Ekspertizası Mərkəzinin icraatına 246 ekspertiza işi daxil olub. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 67 iş çoxdur. İcra olunmuş 230 ekspertiza işinin 202-nə rəy, 28-nə arayış verilib, 15 ekspertiza işi icra olunmadan geri qaytarılıb. Ballistik ekspertizası üzrə təyin edilmiş 2 ekspertiza işi birləşdirilərək 1 ekspert rəyi verilib. Daxil olan digər işlər mərkəzdə mövcud olan ən son texnologiyalar tətbiq edilməklə obyektiv və dəqiq aparılıb, müddət pozgunluğuna yol verilmədən icra olunaraq aidiyyəti üzrə göndərilib.

Bildirilib ki, cari ildə nazirlikdə və tabe qurumlarda şəxsi heyətin nizam və intizamına diqqət artırılmalı, hər bir ədliyyə qulluqçusu daşıdığı vəzifənin və rütbənin məsuliyyətini dərk etməli, vəzifəsini qüsursuz icra etməlidir. Bununla bərabər, profilaktika tədbirləri daha da genişləndirilməli, əməkdaşların peşəkarlığı artırılmalı, nizam-intizam daha da möhkəmləndirilməlidir. Həmçinin aparılan hüququ maarifləndirmə və profilaktika işi mütəmadi davam etdirilməlidir. Muxtar respublikanın kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməklə aktual və hüquqi maarifləndirmə tədbirlərinin təşkili, 2019-cu ildə muxtar respublikada elan edilmiş "Ailə təsərrüfatları" ilinin mahiyyətinə uyğun olaraq bu sahəni tənzimləyən qanunvericilik aktlarının izahı işi diqqətdə saxlanılmalıdır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi bundan sonra da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilən tapşırıqları əsas götürərək qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, onların icrasına daha da məsuliyyətlə yanaşacaq, bu istiqamətdə bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, qarşıda quran vəzifələr müəyyənləşdirilib. Kollegiya iclasında nazirliyin 2019-cu ilə dair iş planı və kollegiya qərarı təsdiq edilib.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

* * *

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasını nazir Bəhruz Bayramov açaraq geniş məruzə ilə çıxış edib.*

Bildirilib ki, bəhs olunan dövrdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya 321 ədəd müxtəlif adda texnika və avadanlıq gətirilib, ötən dövrlərdə gətirilən texnikalar da daxil olmaqla, onlardan 238-i lizinq yolu ilə icarəyə verilib, 48-i isə nağd yolla satılıb. Bundan əlavə, məhsul istehsalçılarına 5 min 156 ton mineral gübrə verilib. Məhsuldar və keyfiyyətli toxum növlərinin istehsalını stimullaşdırmaq məqsədilə Naxçıvan şəhərində "Bərəkət" toxumçuluq təsərrüfatı üçün kompleks inşa edilib, müəssisə yeni kənd təsərrüfatı texnikaları, maşınmexanizmlər və toxumçuluq laboratoriyası ilə təmin olunub.



Qeyd edilib ki, 2018-ci ilin yanvar-noyabr ayları ərzində kənd təsərrüfatının müxtəlif sahələri üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 5 milyon 346 min manat kredit verilib. Əkinçiliklə məşğul olan mülkiyyətçilərə subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi hesabına 2018-ci ilin məhsulu üçün 61 min 935 hektar sahədə əkin aparılıb. Ötən ildə də bitkiçilik məhsulları içərisində taxılçılıq öz üstün mövqeyini qoruyub saxlayıb, 32 min 483 hektar taxıl əkini sahəsindən 97 min 689 ton məhsul yığılıb.

Diqqətə çatdırılıb ki, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması ötən il də davam etdirilib. Belə ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi qurulub. Bu da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına şərait yaradıb.

Bəhs olunan dövrdə 6 min 183 hektar sahədə tərəvəz, 2 min 776 hektar sahədə bostan əkinləri həyata keçirilib, yeni meyvə bağlarının salınması davam etdirilib. Üzümçülüyün inkişafını təmin etmək məqsədilə yerli imkanlardan səmərəli istifadə olunub.

Vurğulanıb ki, kənd təsərrüfatı və ərzaq məhsullarının saxlanması üçün ümumi tutumu 14 min 245 ton olan 33 soyuducu anbarın yaradılması məhsulun satılmayan hissəsinin anbarlara verilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi sahəsi 129 min 162 kvadratmetr olan 22 istixana kompleksi fəaliyyət göstərir.

Ötən illərin davamı olaraq 2018-ci ildə də Naxçıvan şəhərində müxtəlif festivallar keçirilib. Bu festivallarda iştirak edən ailə təsərrüfatlarının da iqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafında mühüm rolu olub. Hazırda muxtar respublikada 800-dən çox kiçik və böyük ailə təsərrüfatı mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin "Ailə təsərrüfatları" ili elan olunması bu sahənin inkişaf etdirilməsi istiqamətində nazirliyin də qarşısında mühüm vəzifələr qoyur.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində 2018-ci ilin yekunları və 2019-cu ildə qarşıda duran vəzifələrlə bağlı iclas keçirilib.*

İclasda agentliyin baş direktoru Hikmət Əsgərov çıxış edərək diqqətə çatdırıb ki, sığorta işinin daha da təkmilləşdirilməsi məqsədilə ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən muxtar respublikanın bütün rayon (şəhər) İcra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirələr keçirilib. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə agentliyin və Dövlət Yol Polisi əməkdaşlarının birgə müntəzəm reydləri də təşkil olunub.

Bildirilib ki, görülmüş işlərin nəticəsində ötən ildə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərdən sığorta tədiyələrinin toplanması həcmi 2017-ci illə müqayisədə artmışdır. Bu dövrdə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmində 690 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmində 6,2 faiz, yaxud müqavilə sayında 582 ədəd, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmində 6,3 faiz, yaxud müqavilə sayında 47 ədəd artım olub. Əmlakın yanğın və digər risklərdən sığortası üzrə toplanmış tədiyələrin həcmi 2,2 faiz, sığorta müqavilələrinin sayı isə 26 ədəd artıb.

Vurğulanıb ki, 2018-ci ildə muxtar respublikanın bütün rayonlarında yerli icra hakimiyyəti orqanları ilə birlikdə kənd təsərrüfatı, xüsusilə bitkiçilik sığortasının əhəmiyyəti barədə izahat-məlumatlandırma işləri aparılıb və kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə 1612 sığorta müqaviləsi bağlanılıb.

Tədbirdə işdəki çatışmazlıqlara da toxunularaq sığorta tədiyələrinin toplanması işində rayon Dövlət Sığorta agentliklərinə qarşıdakı dövrdə daha səylə çalışmaq tapşırılıb. Daha sonra rayon dövlət sığorta agentliklərinin direktorları çıxış edərək görülmüş işlər haqqında məlumat veriblər.

* * *

AMEA Naxçıvan Bölməsində keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək əldə edilən elmi nailiyyətlərə qısa nəzər salıb, qarşıda duran vəzifələrdən danışıb. Diqqətə çatdırılıb ki, ötən il bölmədə 23 monoqrafiya, 15 kitab olmaqla, ümumilikdə, 820 elmi əsər nəşr edilib. Elmi məqalələrdən 48-i impaktfaktorlu (11-i Tomson Reuters) jurnallarda çap edilib.



Bildirilib ki, ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi əsasında "Naxçıvan türbələri", "Naxçıvan imamzadələri", "Naxçıvan hamamları", "Naxçıvan buzxanaları" kitabçaları, həmçinin "Yengicə kəndində Şərq hamamı"(Azərbaycan və ingilis dillərində) bukleti, "Naxçıvanın məscid və ziyarətgahları" monoqrafiyası, "Qarabağlar Türbə Kompleksi" kitabı (Azərbaycan, rus və ingilis dillərində) və "Naxçıvan coğrafiyası"nın ikinci cildi hazırlanaraq nəşr edilib.

Ali Məclis Sədrinin "Şorsu" müalicəvi palçığının hazırlanması ilə bağlı müvafiq tapşırığına əsasən bölmədə palçığın kimyəvi analizi aparılıb, qatılaşdırılma, qurudulma metodikası, texniki şərtləri hazırlanıb, qablaşdırılaraq satış üçün əczaxanalara göndərilib. Həmçinin Biləv kəndi ərazisindən alüminium sulfat tərkibli süxur analiz olunub, eyni zamanda Darıdağ termal suyunun quru qalığından məhsul istehsalına başlanılıb. O cümlədən Qabıllı gili əsasında yuyucu tozu hazırlanıb.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının ərazi florasında 132 rəsmi dərman bitkisi müəyyənləşdirilib. Onlardan alınan qarışıqlar standartlara uyğun reseptlər əsasında qablaşdırılaraq əczaxanalara satışa göndərilib.

İsmayıl Hacıyev şöbə və laboratoriyaların komplektləşdirilməsi, ixtisaslı elmi kadrların hazırlanmasına diqqətin artırılması, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi və tətbiqyönümlü işlərin həyata keçirilməsinin cari ildə qarşıda duran əsas vəzifələr olduğunu bildirib.

Sonra bölmənin ayrı-ayrı institutlarının illik hesabatları dinlənilib, həyata keçiriləcək məsələlər müzakirə edilib.

* * *



*Naxçıvan Dövlət Texniki Kollecində keçirilən iclası giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq bildirib ki, təhsil ocağında 433 tələbə təhsil almaqdadır. Kollecdə 2-si fəlsəfə doktoru olmaqla, ümumilikdə, 45 müəllim fəaliyyət göstərir.*

Vurğulanıb ki, hesabat dövründə muxtar respublika rəhbərinin göstərişi əsasında istilik sahəsinə olan kadr ehtiyacını ödəmək üçün kollecdə yeni İstilik təchizatı və istilik texnikası avadanlıqları ixtisası açılıb.

Qeyd olunub ki, ötən il ərzində kollecdə elektron təhsilin tətbiqi daim diqqət mərkəzində saxlanılıb, muzeylərlə kollec arasında distant təhsil prosesi davam etdirilib. 2018-ci il ərzində 7 ixtisas üzrə hami təşkilatlarla mütəmadi olaraq treninqlər, açıq dərslər təşkil edilib və həmin təşkilatlarda istehsalat təcrübələri keçirilib. Kollecdə 10 elmi dərəcəli və təcrübəli müəllim tərəfindən ilboyu 82 nümunəvi dərs keçirilib ki, bu da şagirdlərin biliklərinin artırılmasında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə kollecin 113 məzunu olub, təhsil ocağını 7 tələbə fərqlənmə diplomu ilə bitirib. Kollecin müəllim və tələbə heyəti müxtəlif tədbirlərdə, intellektual və idman oyunlarında, müsabiqələrdə yaxından iştirak edərək uğurlar qazanıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq məruzə edib.*



Bildirilib ki, rayonda sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılıb, bu sahəyə göstərilən dövlət qayğısının nəticəsində mövcud istehsal müəssisələrinin, fermer təsərrüfatlarının fəaliyyəti genişləndirilib. Ötən il sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müraciət etmiş 289 fiziki şəxs dövlət qeydiyyatına alınıb. 2018-ci ildə 16 milyon 523 min manatlıq, yaxud 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çox sənaye məhsulu istehsal olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin məhsulu üçün rayonda 8 min 665 hektar torpaq sahəsi əkilib. Bitkiçilik məhsulları içərisində taxılçılıq öz üstün mövqeyini saxlayıb, 4 min 706 hektar sahədə taxıl əkini aparılıb, zəmilərdən 13 min 128 ton məhsul yığılıb. Rayonda 116 hektar qarğıdalı sahəsindən 495 ton məhsul tədarük edilib, məhsuldarlıq hər hektar üçün 42,7 sentner olub. Kartofçuluğun da inkişafında müsbət dinamika saxlanılıb, 235 hektar sahədə kartof əkilib, 3 min 208 ton məhsul tədarük olunub.

Qeyd olunub ki, 2018-ci ildə 299 hektar sahədə tərəvəz, 183 hektar sahədə bostan əkinləri həyata keçirilib, barverən meyvə bağlarından 6 min 862 ton məhsul yığılıb. Üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 1,5 hektar sahədə üzüm bağı salınıb, 2 min 200 ədəd üzüm tingi əkilib. Ötən il rayonda 26,2 hektar sahədə tütün əkilib, 41,6 ton quru tütün istehsal olunub. Həyata keçirilən məqsədyönlü tədbirlər kənd təsərrüfatının inkişafına təkan verib, ümumilikdə, 37 milyon 793 min manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Kamal Ələkbərov qeyd edib ki, 2018-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 39 milyon 201 min 400 manat investisiya yönəldilib. Ötən il Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilərək istifadəyə verilib, rayon mərkəzindəki stadion yenidən qurulub, Böyükdüz kəndində 616 hektar əkin sahəsini əhatə edən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Qıvraq qəsəbəsindəki 48 mənzilli yaşayış binasının inşası başa çatdırılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasını giriş sözü ilə xidmətin rəisi Namiq Paşayev açıb.*

Bildirilib ki, ötən il ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 457 milyon 905 min 325 kilovat-saat elektrik enerjisi daxil olub. Bunun 31 milyon 964 min kilovat-saatı İran İslam Respublikasından alınıb, qalanı isə muxtar respublikanın elektrik stansiyaları tərəfindən ödənilib. Bəhs olunan dövrdə İran İslam Respublikasına 31 milyon 992 min kilovat-saat elektrik enerjisi verilib.

Qeyd edilib ki, 2018-ci ildə xidmət tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılıb. Tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlifgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlər həyata keçirilib.

Diqqətə çatdırılıb ki, ötən il muxtar respublikanın şəhər, rayon və kəndlərində 32 ədəd 10/04 kilovoltluq yeni transformator yarımstansiyası quraşdırılıb, 41,2 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib, 10,8 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz edilib. 76,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik xətlərində təmir işləri aparılıb. Təmir işləri zamanı 38,9 kilometr uzunluğunda müxtəlif en kəsikli SİP markalı izolə edilmiş məftillərdən istifadə olunub. Həmçinin bəhs edilən dövrdə Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 107 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb.

Vurğulanıb ki, ötən il Naxçıvan şəhəri və Babək qəsəbəsində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların quraşdırılması işləri uğurla aparılıb, bu tip sayğacların sayı, ümumilikdə, 22 min 891-ə çatdırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin ötən ilin yekunlarına həsr olunmuş iclasını agentliyin direktoru Vüqar Babayev açıb.*

Bildirib ki, hesabat dövrü ərzində yerli dindarlarla görüşlər təşkil edilib, maarifləndirici söhbətlər aparılıb. Məscidlərdə oxunan xütbələrin vahid mövzu üzərində qurulması məqsədilə 250 ədəd xüsusi broşür hazırlanıb. Ekspert rəyi verilməsi üçün müvafiq orqanlardan agentliyə 876 adda 1335 ədəd dini təyinatlı ədəbiyyat daxil olub, aparılan araşdırmadan sonra 236 adda dini təyinatlı ədəbiyyatın muxtar respublika ərazisində yayılmasının qarşısı alınıb. İstifadəyə yararlı 764 ədəd ədəbiyyat isə "Naxçıvan" Universitetinə verilib. Həmçinin radikal dini cərəyanlara və zərərli təbliğat aparan dini qrup və şəxslərə məxsus olan 29 sosial şəbəkə linkinin, eləcə də 96 adda saytın siyahısı Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunub, onların fəaliyyətləri dayandırılıb.

Qeyd olunub ki, zəvvar qruplarının təşkili nəzarətdə saxlanılıb, ötən il Naxçıvan Muxtar Respublikasından 1656 nəfər xarici ölkələrdəki ziyarətgahlara səfər edib.

Vurğulanıb ki, hesabat dövründə agentlik dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində maarifləndirmə işlərinin təşkilinə ciddi önəm verib.

Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar tədbirlər planına uyğun olaraq agentlik digər müvafiq orqanlarla birgə "İslam dini və ailə dəyərləri" və "İslam dəyərləri Ramazan və Qurban bayramları" mövzusunda konfranslar təşkil edib.

İclas mövzu ətrafında çıxışlarla başa çatıb.

* * *

*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclasını giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açıb.*



Bildirilib ki, ötən il şura Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı ilə birlikdə muxtar respublikada fəaliyyət göstərən ali, ümumtəhsil məktəbləri kollektivlərinin, həmçinin nazirlik, komitə, idarə, müəssisə və təşkilatların əməkdaşlarının Ağbulaq İstirahət Mərkəzində istirahətlərini təmin edib. Aztəminatlı və sağlamlıq imkanları məhdud, eləcə də şəhid ailələrindən olan uşaqların da ailələri ilə birlikdə bu mərkəzdə istirahətləri təşkil olunub. Ümumilikdə, 2018-ci ildə 40-dan çox təşkilatın 2000-ə yaxın əməkdaşı mərkəzdə istirahət etmək imkanı qazanıb.

Diqqətə çatdırılıb ki, şura ötən illərdə olduğu kimi, 2019-cu ildə də öz işini qarşıya qoyulan tapşırıq və tələblər əsasında quracaq, işçilərin sosial-iqtisadi və hüquqi mənafelərinin qorunmasını, əmək intizamına davamlı şəkildə riayət olunmasını daim diqqət mərkəzində saxlayacaqdır.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

Yeni nəşrlər

## Naxçıvana məxsus bayram mərasimləri Türk dünyasının xalq yaradıcılığında əhəmiyyətli dəyərə malikdir

*Xalq mədəniyyəti Azərbaycan folklorunda əhəmiyyətli yerə malikdir. Bu yaradıcılıq xalqa məxsus, məlum qayda-qanunları olan, dövrdən-dövrə ötürülən tükənməz dəyərlər məcmusudur. Xalq yaradıcılığımızın öyrənilməsi sahəsində folklorşünaslığımızda müəyyən işlər görülməsinə baxmayaraq, bu sahədə müəyyən məsələlər hələ də yetərincə tədqiq edilməyib. Bəzi xalq yaradıcılığı örnəklərində qədim inanc sistemləri və milli mədəniyyətimizin ayin və rituallarına dair icra tərzini Naxçıvanda yeni bir formada, çox vaxt da islami dəyərlərlə icrasını müşahidə edirik. "Naxçıvanda bayram mərasimləri" adlı yeni nəşr olunmuş monoqrafiya bayram və mərasimlər vasitəsilə ulu soykökümüzün dünyagörüşünü, milli təfəkkür tərzini öyrənmək baxımından əhəmiyyətli mənbədir. Yeni nəşr folklor və etnoqrafiyamızı oxuculara daha geniş kontekstdə təqdim edir.*



Folklorşünas Elxan Yurdoğlu və tarixçi-etnoqraf Asəf Orucovun birgə ərsəyə gətirdikləri bu əsər bir çox xalq yaradıcılığı məsələlərini aydınlaşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Monoqrafiya bayram və mərasimlərin Azərbaycanın şifahi yaradıcılıq mədəniyyətindəki yerini müəyyənləşdirmək nöqteyi-nəzərindən, həmçinin bu problemi müasir dövrün baxış bucağıyla dəyərləndirmək baxımından da fundamental elmi dəyər kəsb edir. Təqdim edilən mərasim və rituallar ümumazərbaycan kontekstində Naxçıvanın milli-mənəvi dəyərlərinin kulturoloji, fəlsəfi, filoloji, etnoqrafik tədqiqinin zəruriliyini də ortaya çıxarır.

Xalq yaradıcılığı örnəklərini, etnoqrafik məhsulları toplamaq və araşdırmaq üçün onları sinifləndirmək barədə ciddi biliyə malik olmaq zəruridir. Müəlliflərin bu mövzuda zəngin elmi məlumatlılığı hər bir mərasim və ritualın, xalq yaradıcılığı örnəklərinin təqdimatında duyulmaqdadır. Ümumiyyətlə, kitabın təqdirəlayiq məziyyətlərindən biri Naxçıvanın bayram və mərasimlərinin, həm Azərbaycan, həm də Türk dünyasının xalq yaradıcılığı sahəsindəki əhəmiyyətini müəyyənləşdirmək və bu işin öhdəsindən layiqincə gəlinib.

Folklor və etnoqrafiyanı daha geniş sahədə tədqiq etməyə çalışan müəlliflərin həm ekspedisiyalar zamanı, həm də fərdi şəkildə topladıqları nümunələr monoqrafiyanın elmi əhəmiyyətini yüksəldir. Qeyd etmək lazımdır ki, müasir folklor dünyasına fərdi baxış çağdaş folklorun araşdırılması baxımından xüsusi maraq doğurur.

Araşdırmalar folklor və etnoqrafiyanın ayrılmaz sahələr kimi öyrənilməsinin vacibliyini gündəmə gətirir. Alimlər haqlı olaraq özünəməxsus araşdırma ənənəsi ilə Naxçıvanın müxtəlif regionlarından topladıqları və araşdırmaya cəlb etdikləri mərasim və ayinləri ayrı-ayrılıqda nəzərdən keçirir, onların fərqli cəhətlərini müəyyənləşdirir, bu nümunələri etnik şüurun məhsulu kimi təqdim edirlər. Müəlliflər həm də mərasim folkloru sahəsində maraqlı nümunələri təqdim etməklə Naxçıvan əhalisinin mənəvi, etik-estetik dəyərlərini aşkar etmiş olurlar.

Oxuculara təqdim olunan bu monoqrafiya giriş və 4 fəsildən ibarətdir. I fəsildə mövsüm dəyişiklikləri ilə əlaqədar icra olunan mərasimlər təsvir edilir. Bu təsvirlərin köməyi ilə anlaşılır ki, bu gün ənənə şəklində yaşayan və hələ də icra edilən mərasimlərə ilahiləşdirilmiş qüvvələrə olan etiqadların məhsulu kimi də yanaşmaq mümkündür. Xalqımızın milli-mənəvi dəyərlərindən olan Novruzun mənşəyi, onun keçmişdə və hazırda icrasının təsvirinin verilməsi bayramın məhz Azərbaycan türklərinə məxsusluğunu bir daha təsdiqləyir.

Məlum olduğu kimi, su kultu ilə bağlı qədim türklərdə müxtəlif su bayramları keçirilərmiş. Mərhum etnoqraf-alim Hacı Qadir Qədirzadənin haqqında məlumat verdiyi, əlavə olaraq araşdırıcı Asəf Orucov tərəfindən tədqiq edilən "Susəpən mərasimi" qədim türklərin mənəvi həyatının növbəti xüsusiyyətini təsvir edir. Bu mərasimin təsviri etnosun suya olan inamının arxaik köklərini aşkara çıxarmağa kömək edə bilər.

Naxçıvanda icra olunan çillə mərasimləri, çərşənbələr, xüsusilə Ordubad bölgəsində "Yeddiləvin" adlandırılan İlaxır çərşənbəsi maraqlı ayinlər kimi diqqəti cəlb etməkdədir. Novruzda, əsasən, Ordubad ərazisində icra olunan "Xanbəzəmə" mərasimi Naxçıvanda, ümumən, Azərbaycanda Novruz bayramının zirvəsi kimi dəyərləndirilməlidir. Yeni tədqiqat əsərindən gələn qənaət budur ki, bu mərasimlər xalqımızın dünyayabaxışı, mənəvi aləmi ilə əlaqədar yaranıb, türkün mədəniyyət simvoluna çevriliblər.

II fəsildə Naxçıvan əhalisinin təsərrüfat və ailə məişəti, həyat tərzi ilə bağlı yaranan ayin və mərasimlərin təsviri özünə yer alıb. "Çömçəxatun", "Müsəllaya çıxma", "Xırmanüstü", "Köç" kimi mərasimlər ulu əcdadlarımızın arxaik düşüncəsinin məhsulu kimi bu gün də Naxçıvanın bəzi bölgələrində qorunub saxlanılmışdır. Yağışı kəsmə və ya yağışyağdırma niyyətilə icra olunan "Çömçəxatun" və "Müsəllaya çıxma" kimi mərasimlər bu gün də məişətə aid mənəvi-əxlaqi detalları mühafizə etməkdədir.

İnsanların kollektiv əməyini ifadə etmək baxımından yaddaşlarda qorunan "Xırmanüstü" mərasimi Naxçıvan əhalisinin yaşam tərzini ifadə etmək nöqteyi-nəzərindən dəyərlidir.

Monoqrafiyanın III fəsli Naxçıvanda icra olunan ailə-məişətlə bağlı mərasimləri özündə əks etdirir. Burada müəlliflər məişət mərasimləri və onlarla əlaqəli yaranan poetik nümunələri də təqdim ediblər. Fəsildə həm toy, həm də yas adətlərini özündə ehtiva edən ayin və mərasimlərin icrasının təsviri verilib. Hazırda müasir elementlərin folklorun digər nümunələrinə təsiri kimi, mərasim adətlərinə də təsiri qaçılmazdır. Kitabda mərasimlərlə bağlı təsviri verilmiş müasir elementlər fikrimizi sübut etməkdədir.

IV fəsildə Naxçıvanda icra olunan dini bayram və mərasimlərə diqqət çəkilir. Dini mərasimlər dedikdə, ilk növbədə, təsəvvürdə Qurban bayramı, Orucluq mərasimi, Məhərrəm ayının mərasimləri canlanır. Monoqrafiyada bu barədə əhatəli təsvirlər verilib. Etnoqrafik müşahidələr göstərir ki, İslam dininin güclü olduğu dövrlərdə belə, qədim inamlarla bağlı rituallar yaddan çıxmayıb, əksinə, onlar dinlə qarşılıqlı formada inkişaf edib. Müəlliflərin gəldiyi qənaət budur ki, ümumən, Azərbaycanda qeyd olunan, islami əxlaq və dəyərləri yaşadan dini bayram və mərasimlərin icra edilməsində qədim türk mifologiyasının izlərini aşkarlamaq mümkündür.

Naxçıvanın bayram və mərasimlərinin yaranış və inkişaf xüsusiyyətlərini özündə əks etdirən bu monoqrafiya bu gün də qorunub saxlanılan mənəvi-əxlaqi dəyərlərin ictimai və estetik mahiyyətini aşkara çıxarmaq baxımından təqdirəlayiqdir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

*Dünən Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncağı olub.*

## Voleybol Federasiyasının yığıncağı keçirilib



Tədbiri giriş sözü ilə açan federasiyanın sədri Mənşur Gülməmmədli bildirib ki, federasiya ötən il işini günün tələbləri səviyyəsində qurараq bu idman növünün inkişafı və kütləviliyinə nail olunması istiqamətində bir sıra işlər görüb. Belə ki, muxtar respublikada çempionat, birincilik, turnir və yoldaşlıq görüşləri keçirilib. Eyni zamanda Naxçıvanın kişilərdən ibarət voleybol üzrə yığma komandası Yüksək Liqa Azərbaycan çempionatında iştirak edib. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində komandanın maddi-texniki bazası gücləndirilib. Voleybol üzrə yığma komandamız həftənin beş günü İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşqlərini davam etdirib.

Vurğulanıb ki, muxtar respublika üzrə daxili yarışlar da federasiyanın diqqətindən kənarda qalmayıb. Federasiya muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə birgə 11 tədbir keçirib. Həmçinin ötən il fevral ayında Bakı şəhərindəki Dərnəgül İdman Mərkəzində Yüksək Liqa kişilər arasında voleybol üzrə Azərbaycan çempionatında I dövrənin I, II, III və IV turunun oyunları keçirilib. Çempionatda Bakının "Neftçi", "Sərhədçi", "Lokomotiv" və "Ekspress" komandaları ilə yanaşı, muxtar respublikamızın "Naxçıvan" komandası da mübarizə aparıb. Eyni zamanda federasiyanın iki yetirməsi yeniyetmələrdən ibarət milli komandaya dəvət alıb və təlim-məşq toplanışlarında iştirak edib.

Federasiyanın sədri çıxışının sonunda həyata keçirilən tədbirlərin federasiya ilə Gənclər və İdman Nazirliyinin birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olduğunu qeyd edib, dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların bundan sonra da layiqincə yerinə yetiriləcəyinə, eyni zamanda yığma komandanın tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görüləcəyinə əminliyini bildirib.

Yığıncaqda çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, muxtar respublikamızda idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, bu gün muxtar respublikada artıq gənc idmançılar nəsli yetişib, yüksək nəticəsi olan idmançıların adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisində 10 dekabr 2018-ci il tarixdə keçirilən müşavirədə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına bir sıra tapşırıqlar verilib. Bu tapşırıqlara əsasən Voleybol Federasiyası idmanın bu növünün inkişaf etdirilməsini, gənclərin idmana cəlbini, idman yarışlarının kütləviliyinin artırılmasını diqqətdə saxlamalıdır. Həmçinin federasiya daxilində istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməli, ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsini, həmçinin Azərbaycanın iştirak etdiyi beynəlxalq səviyyəli yarışlarda muxtar respublika idmançılarının iştirakını təmin etməlidir.

Nazir bildirib ki, Voleybol Federasiyası bu idman növünün muxtar respublikada kütləviliyi, yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində məqsədyönlü iş aparıb, komandalar formalaşdırılıb. Keçirilən yarışlar idmançıların peşəkarlıq səviyyəsinin yüksəlməsinə, yeni idmançıların yetişməsinə səbəb olub. Mütəmadi olaraq ixtisaslı mütəxəssislərin dəvət olunması ilə ustad dərslərin keçilməsi, texniki-taktiki seminarların aparılması voleybol idman növü üzrə müxtəlif yaş qruplarında komandaların formalaşmasına müsbət təsir edib. Azad Cabbarov vurğulayıb ki, nazirlik bundan sonra da federasiya ilə birlikdə işini günün tələblərinə uyğun şəkildə quracaq və bu növün kütləvi hal alması üçün mütəmadi olaraq birgə çalışacaqdır.

Sonra Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyevin 2018-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabat çıxışı dinlənilib. Naxçıvan şəhər komandasının baş məşqçisi Namiq Alışov çıxışında göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib. Tədbirdə federasiyanın il ərzində fərqlənən idmançıları mükafatlandırılıb.

Yığıncağa yekun vuran Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədri yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

## Üç gündə üç humanitar aksiya

*Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti yanvar ayının 12-dən başlayaraq Şərur rayonunda üçgünlük humanitar aksiya keçirib.*





Rayon Mərkəzi Xəstəxanasında keçirilən aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 28 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentləri tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb.

Aksiya müddətində 3 min 120 müayinə, 140 cərrahi əməliyyat aparılıb. Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olanlar üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar icra olunub. Aksiya zamanı pasiyentlər, həmçinin hematoloji, nefroloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə ediliblər.

Səciyyəvi hal budur ki, aksiyada yerli həkim-cərrahlar da yüksəkixtisaslı tibbi heyətlə birgə cərrahi əməliyyatlar aparıblar. Xəstələr həkim nəzarəti ilə müşahidə altında saxlanıldıqdan sonra evlərinə buraxılıblar.

Aksiyada tibbi xidmətlə əhatə olunan rayon sakinləri onların sağlamlıqlarının qorunmasına göstərilən dövlət qayğısına görə muxtar respublika rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.

* * *

Digər humanitar tibbi aksiya isə Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri tərəfindən yanvarın 13-də və 14-də Babək Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Xəstəxananın həkim briqadası tərəfindən 121 nəfərin ambulator müayinələri aparılıb. Əməliyyata ehtiyacı olan 51 nəfər isə cərrahi əməliyyat olunub.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri yerli həkimlərə bəzi tövsiyələr də veriblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah olunub.

* * *

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsin həkim və tibb işçiləri tərəfindən növbəti tibbi aksiya isə yanvarın 12-də və 14-də baş tutub. Aksiya zamanı pasiyentlər 100 kardioloji, 39 dəri-zöhrəvi, 69 LOR, 105 oftalmoloji, 30 ultrasəs müayinələrdən keçiblər.

Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan 27 nəfər üzərində ümumi cərrahi, göz, proktoloji, uroloji, fimoz, burun-qulaq-boğaz və digər əməliyyatlar aparılıb. Xəstəxanada ilk dəfə spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr palatalarda yerləşdirilib.

Qaraağac kənd sakini Gülgəz Cəfərovanın iki övladı ambulator tibbi müayinələrlə əhatə olunub. Valideyn övladlarının başqa yerlərə getmədən müayinə olunmasına görə minnətdarlığını bildirib.

Tibbi müayinə və müalicələrlə əhatə olunan muxtar respublika sakinləri bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Tanrının sığal çəkdiyi məkan – NAXÇIVAN



*(Mənsur şeir)*

*Gözəlliklərini görməyə ömürlərin bəs etmədiyi, ecazkarlığı qarşısında insanın dili tutulan nazlı diyar, Tanrının sığal çəkdiyi məkan – NAXÇIVAN!*

Payızını qırmızımtıl yarpaqlarında sevdiyim, qışına binalarının kirəmitlərindən sallanan buzlarında heyran qaldığım, yazına qaranquşlarının cəhcəhində vurulduğum, yayında coşqun çayların şaqraq sularına gömüldüyüm ürəkparam. Sözlərə sığışmayan qiymətsiz diyar...

Sən Cavid əfəndinin özünü dünyalara təqdim etdiyi səhnəsən. Məmməd Araz ədəbiyyata səndən salam söyləyib, şeir torpaq. Öpmək istəyirəm gecələrinin nur çələngindən, gözlərimi bir an belə ayırmadan baxmaq istəyirəm səhərlərinin sübh şəfəqinə. Doymuram səndən, doymaq istəmirəm diyarımdan. Azadlığımın azadlığa çıxdığı ümmanım, NAXÇIVANIM!

Qədimlik qoxulum, gənclik nəfəslim, min illər keçsə də, gəncliyindəki qədimlik özünü itirməz, itirməyəcək. Torpağın zər, daşın dürdür, mənim qızıl məmləkətim. Möminə xatın cənnət payındı, Əlincə düşmənə gözdağın. Batabatsa bu qədər əsrarəngizliyin olsun mavi göz muncuğun. Hər şeyin ən gözəlini Tanrı sənə veribdi, doğmaların doğması. Təsadüf deyil. Axı təsadüf belə olmur. Şairlərin şairi, şeiri, sözü səndə. Ən gözəl təbiətin elə özü səndədir. Bilirsən, göz işığım? Sən o qədər gözəlsən...

Doğma Azərbaycanın iki gözündən biri sənsən, özəlsən. Bax buna görədir ki, paxıl qonşuların da, bədnam düşmənlərin də əli, gözü səndədir. O əlləri qırmağa lazım olan qılınc da, o gözləri oymağa gərək olan bıçaq da səndədir, şairlərin sözündə, yazarların qələmindədir, NAXÇIVANIM!

Sən İslam mədəniyyətinin beşiyi, dünyaya açılan, Qoca Şərqin daima açıq olan qapısısan, Həyat eşqim!!! Bu gözəlliklərə, əzəmətə ülvilik qatanın, memarlıq edənin də var. O ŞƏXS ki qüsursuzluğuna qüsursuzluq qatır. Günügündən zirvələrin ən ümdə sakini edir səni, Gözəllik abidəmi... Nə qədər ki ONUN əli üstündə vardır, sən də var olub milyonların həmişəvar varlığına dönəcəksən, göz bəbəyim, Nuh ocaqlı Nuhçıxanım...

**Qızbəsti SULTAN**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## Aybəniz Haşımova: "Cavidlər diyarı Naxçıvandakı bugünkü gözəlliklər danılmaz zəhmətin bəhrəsidir"

*Naxçıvan hər zaman özünün tarixi, mədəniyyəti, yetirdiyi görkəmli şəxsiyyətləri ilə tanınıb. Son illərdə şəhərimizə yolu düşən qonaqlar da Naxçıvanın gözəlliyindən ağızdolusu danışır, bu qədim diyarın hər bir yaradıcı insan üçün ilham mənbəyi olduğundan bəhs edirlər. Bu günlərdə belə yaradıcı insanlardan biri ilə şəhərimizdə aparılan çəkilişlər zamanı görüşüb söhbət etdik. Şəhərimizin budəfəki qonaqları Azərbaycan Respublikasının Əməkdar artisti Aybəniz Haşımova, çəkiliş heyəti və 9 yaşlı tələbəsi Həsən Əliyevdir.*

Naxçıvana səfərinin sevincini bizimlə bölüşən Əməkdar artist deyir ki, qədim diyara bundan öncə də gəlib. Qayıdanda Bakıda hər kəsə demişəm ki, istəyirəm köçüm Naxçıvanda yaşayım. Yəni bu qədər sevmişəm bu şəhəri, buradakı sakitliyi, səliqə-sahmanı, nizam-intizamı... Bu şəhər mənim qəlbimi oxşayır, gözəl təbiəti, təmiz havası ilə yanaşı, müasirliyi, abadlığı insana zövq verir. Təbii ki, Naxçıvandakı bu gözəlliklər muxtar respublika rəhbərinin zəhmətinin bəhrəsidir.

Aybəniz Haşımovadan səfərin məqsədini soruşduqda bunları dedi:





– Gəlişimizin məqsədində dahi Hüseyn Cavid, onun sevgisi dayanır və uzun illər ürəyimdə yaşayan bir arzu gerçəkləşir. Muxtar respublika rəhbərinə minnətdaram ki, bu arzumuzun gerçəkləşməsi üçün bizə belə bir şərait yaratdı. Məqsəd Fikrət Əmirovun dahi Hüseyn Cavidin "Şeyx Sənan" faciəsindən olan misralarına bəstələdiyi "Kor ərəbin mahnısı"na klip çəkməkdir. Mən bu layihəni yetirməm, 9 yaşlı Həsən Əliyevin üzərində qurmuşam və məqsədim də, arzum da Cavid əfəndini, onun həyatını məhz klip formasında az da olsa, göstərməkdir.

Qeyd edək ki, yeni klipin çəkilişləri böyük ədibin şəhərimizdəki ev-muzeyində və türbəsində aparılıb. Təbii ki, indiyədək bu mahnıya müraciət edənlər çox olub və kliplər də çəkilib. Ancaq Aybəniz xanımın sözlərinə görə, bu klip tam fərqli olacaq. Onun ana xəttini Cavid əfəndinin öz obrazı təşkil edəcək. Aybəniz xanım deyir ki, Cavid əfəndinin bütün həyatı 9 yaşlı Həsənin gözlərində canlanacaq. Bu, onun baxışı və körpə ürəyi ilə reallaşacaqdır. Klipin fərqi ondadır ki, orada ancaq Hüseyn Cavid olacaqdır. Özünüz görmüsünüz, digər kliplərdə müxtəlif şah obrazlarını, şahın sarayında baş verən hadisələri canlandırıblar. Ancaq burada tam əksinə, baş rolda səma şairinin özü olacaqdır. Klipin çəkilişində nadir arxiv lentlərinə müraciət edilib. Cavid əfəndinin cənazəsinin Naxçıvana gətirilməsi, onun doğma torpağında dəfn olunması, ulu öndərin tapşırığı ilə Naxçıvanda məqbərəsinin ucaldılması da klipdə öz əksini tapıb. Mən inanıram ki, klipi izləyən bütün insanlar təsirlənəcək. Çünki Azərbaycanda ilk hadisədir ki, 9 yaşlı uşaq Hüseyn Cavidin sözlərinə bəstələnmiş bu məşhur əsəri ifa edir.

İstedadlı ifaçı balaca Həsənin də təəssüratlarını bizimlə bölüşməyini istəyirik. O deyir:

– Bu gün Naxçıvana gəlmişik. Mən çox xoşbəxtəm ki, Hüseyn Cavidin Vətənindəyəm və bu əsəri ifa edirəm.

Qeyd edək ki, ötən bazar günü axşam saatlarınadək davam edən klipin çəkilişləri şəhərimizdə bir neçə ünvanda, eləcə də Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında aparılıb.

**✍ Gülcamal TAHİROVA**

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3631,4 | 266,0 | 266,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2219,0 | 157,3 | 157,3 | 100,0 |
| 3. | Babək rayonu | 1876,0 | 133,0 | 133,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1007,0 | 71,5 | 71,5 | 100,0 |
| 5. | Culfa rayonu | 986,0 | 70,0 | 70,0 | 100,0 |
| 6. | Kəngərli rayonu | 634,0 | 45,0 | 45,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 535,0 | 38,0 | 38,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 197,0 | 14,0 | 14,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15654,6 | 1408,9 | 1407,4 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26740,0** | **2203,7** | **2202,2** | **99,9** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 26 milyon 740 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 203 min 700 manat olmuş, cəmi 2 milyon 202 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4221643 | 593476 | 596033 | 100,4 |
| 2. | Şahbuz rayonu | 841536 | 109649 | 110109 | 100,4 |
| 3. | Culfa rayonu | 1385498 | 175822 | 175970 | 100,1 |
| 4. | Ordubad rayonu | 1351283 | 169722 | 169825 | 100,1 |
| 5. | Şərur rayonu | 2516900 | 296899 | 297061 | 100,1 |
| 6. | Sədərək rayonu | 302752 | 34644 | 34656 | 100,0 |
| 7. | Kəngərli rayonu | 1039983 | 132985 | 133001 | 100,0 |
| 8. | Babək rayonu | 2599670 | 370967 | 370973 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 13349491 | 2287389 | 2528988 | 110,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27608756** | **4171553** | **4416616** | **105,9** |

### İtmişdir

Əfqanıstan vətəndaşı Gülzar Hakim Xan oğlunun adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər Qaraçuq kənd sakini Fərəcov Rəfail Ağəli oğlunun adına olan JN-378[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 37